AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# INTERPRETATION OF CHINESE CULTURAL TRADITIONS IN THE CONTEXT OF EUROPEAN PHILOSOPHY AND CULTURE

**Ulviyya Aghabayova**[1]

**UDC:** 1(51):1(4)“19”:008
**LBC:** 87.3(5Chn)6:87.3(4)
**HoS:** 143
**DOI:** 10.33864/2790-0037.2026.v7.i1.220-230

**Keywords:**

China, Traditional, Cultural, Critical, European, Philosophy, Hu Shi, He Lin, Confucianism, Synthesis, Westernization (to Westernize), Maoism

**Subject area:**

Humanitarian and Social Sciences

**Research field:**

Philosophy of Culture

## ABSTRACT

From the first quarter of the last century, a turbulent transformation took place in the Eastern world, characterized by processes of national self-awareness as well as interaction with world culture. In China, the stage of so-called “awakening” led to a confrontation between two opposing camps: conservative intellectuals on the one hand, and progressive, open-minded thinkers on the other, who recognized the necessity of turning to Western modes of thought and seriously embraced them as a source of renewal. In this regard, several approaches to Chinese philosophical heritage emerged, including traditional, critical, and integrative perspectives aimed at harmonizing Chinese and Western philosophies. Prominent representatives of the conservative camp — Feng Youlan, He Lin, and Liang Shuming — advocated the idea of synthesizing Eastern and Western philosophical worldviews, giving priority to local traditions, especially Confucianism. Hu Shi emerged as the main proponent of the policy of “Westernization,” rejecting outdated social customs and considering engagement with European philosophy a key factor in China’s development, emphasizing its significance for the country. He primarily promoted pragmatism and positivism. According to Hu Shi, Western societies benefit from the achievements of world science and apply them in practice, fully utilizing human reason and intellect in the pursuit of humanity’s salvation and well-being. Therefore, he believed that turning to the West could rescue China from economic and political backwardness.

[1] Doctor of Philosophy in Philosophy, Associate Professor,
Baku State University; Baku, Azerbaijan
E-mail: ulviya.agabeyli@mail.ru
https://orcid.org/0009-0008-9805-5099
**To cite this article:** Aghabayova, U. [2026]. Interpretation of Chinese Cultural Traditions in the Context of European Philosophy and Culture. *History of Science journal*, *7*(1), pp.220-230.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.220-230

***Article history:***
*Received: 04.01.2026*
*Revised: 04.02.2026*
*Accepted: 01.03.2026*
*Published: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# ÇİN MƏDƏNİ ƏNƏNƏLƏRİNİN AVROPA FƏLSƏFƏSİ VƏ MƏDƏNİYYƏTİ KONTEKSTİNDƏ ŞƏRH EDİLMƏSİ

**Ülviyyə Ağabəyova**[1]

**UOT:** 1(51):1(4)“19”:008
**KBT:** 87.3(5Çin)6:87.3(4)
**HoS:** 143
**DOI:** 10.33864/2790-0037.2026.v7.i1.220-230

**Açar sözlər:**

Çin,
Ənənəvi,
Mədəni,
Tənqidi,
Avropa,
Fəlsəfə,
Xu Şi,
Xe Lin,
Konfusiçilik,
Sintez,
Qərbləşmək,
Maoizm

**Sahə:**

İctimai və Humanitar elmlər

**Tədqiqat sahəsi:**

Mədəniyyət Fəlsəfəsi

## ANNOTASİYA

Keçən əsrin birinci rübündən etibarən Şərq dünyasında təlatümlü bir dönüş baş verir ki, bu da həm milli özünüdərk, həm də dünya mədəniyyəti ilə çulğalaşma prosesi ilə səciyyələnir. Çində də baş verən “oyanış” mərhələsi həm konservativ ziyalıların, həm də qərb təfəkkür tərzinə üstünlük verərək ondan bəhrələnməyin zəruriliyini hiss edən və bunu ciddi şəkildə qəbul edən qabaqcıl, açıq fikirli mütəfəkkirlərin iki bir-birinə zidd cəbhədə vuruşmasına gətirib çıxarır. Bu baxımdan çin fəlsəfi irsinə yanaşmada ənənəvi, tənqidi, Çin - Qərb fəlsəfəsinin uyğunlaşdırılması kimi istiqamətlər görüntüyə gəlir. Konservativ cəbhənin böyük nümayəndələri Fen Yu Lan, Xe Lin, Lyan Şu Min Şərq - Qərb fəlsəfi dünyagörüşünün sintezi ideyasından çıxış edir, yerli ənənələrə, əsasən də konfusiçiliyə üstünlük verirdilər. “Qərbləşmək” siyasətinin əsas tərəfdarı kimi çıxış edən Xu Şi isə cəmiyyətin köhnəlmiş adət-ənənələrini təkzib edir, Avropa fəlsəfəsinə müraciət etməyi əsas faktor sayır, bunun Çin üçün əhəmiyyətli olduğunu göstərirdi. O, əsasən, praqmatizm və pozitivizmi təbliğ edirdi. Xu Şiyə görə qərblilər dünya elmlərinin nailiyyətlərindən bəhrələnərək onu praktikada tətbiq edir, insan ağlından və zəkasından tam şəkildə istifadə edərək bəşəriyyətin nicatına və rifahına çalışırlar. Ona görə də o, hesab edirdi ki, qərbə müraciət etməklə Çini iqtisadi-siyasi gerilikdən xilas edə bilərik.

[1] Fəlsəfə üzrə fəlsəfə doktoru, Dosent,
Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrası, Bakı Dövlət Universiteti; Bakı, Azərbaycan
E-mail: ulviya.agabeyli@mail.ru
https://orcid.org/0009-0008-9805-5099
**Məqaləyə istinad:** Ağabəyova, Ü. [2026]. Çin Mədəni Ənənələrinin Avropa Fəlsəfəsi və Mədəniyyəti Kontekstində Şərh Edilməsi. *History of Science jurnalı*, *7*(1), səh.220-230.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.220-230

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 04.01.2026*
*Yenidən baxılıb: 04.02.2026*
*Təsdiqlənib: 01.03.2026*
*Dərc olunub: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# ИНТЕРПРЕТАЦИЯ КИТАЙСКИХ КУЛЬТУРНЫХ ТРАДИЦИЙ В КОНТЕКСТЕ ЕВРОПЕЙСКОЙ ФИЛОСОФИИ И КУЛЬТУРЫ

**Ульвия Агабекова**[1]

**УДК:** 1(51):1(4)“19”:008
**ББК:** 87.3(5Кит)6:87.3(4)
**HoS:** 143
**DOI:** 10.33864/2790-0037.2026.v7.i1.220-230

**Ключевые слова:**

Китай,
Традиционная,
Культурная,
Критическая,
Европа,
Философия,
Ху Ши,
Хе Лин,
Конфуцианство,
Синтез,
Вестернизация,
Маоизм

**Область исследования:**

Гуманитарные и социальные науки

**Научная область:**

Философия культуры

## АННОТАЦИЯ

Начиная с первой четверти прошлого века в восточном мире происходит бурный поворот, который характеризуется как процессом национального самосознания, так и взаимодействием с мировой культурой. В Китае этап так называемого «пробуждения» привёл к противостоянию двух противоположных лагерей: с одной стороны — консервативной интеллигенции, с другой — прогрессивных, открытых мыслителей, которые осознавали необходимость обращения к западному типу мышления и серьёзно воспринимали его как источник обновления. В этом контексте в подходе к китайскому философскому наследию проявляются такие направления, как традиционное, критическое и направление, ориентированное на синтез китайской и западной философии. Выдающиеся представители консервативного лагеря — Фэн Юлань, Хэ Линь, Лян Шумин — исходили из идеи синтеза восточного и западного философского мировоззрения, отдавая приоритет местным традициям, прежде всего конфуцианству. Основным сторонником политики «вестернизации» выступал Ху Ши, который отвергал устаревшие общественные обычаи и считал обращение к европейской философии ключевым фактором развития, подчёркивая её важность для Китая. В основном он пропагандировал прагматизм и позитивизм. По мнению Ху Ши, западные народы, используя достижения мировой науки и применяя их на практике, в полной мере задействуют человеческий разум и интеллект, стремясь к спасению и благополучию человечества. Поэтому, считал он, обращение к Западу может спасти Китай от экономической и политической отсталости.

[1] Кандидат философских наук, доцент,
Бакинский государственный университет; Баку, Азербайджан
E-mail: ulviya.agabeyli@mail.ru
https://orcid.org/0009-0008-9805-5099

**Цитировать статью:** Агабекова, У. [2026]. Интерпретация китайских культурных традиций в контексте европейской философии и культуры. *Журнал History of Science*, *7*(1), с.220-230.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.220-230

***История статьи:***
*Поступила: 04.01.2026*
*Переработана: 04.02.2026*
*Принята: 01.03.2026*
*Опубликована: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

İyirminci əsrin birinci yarısında fəlsəfi fikrin inkişafı yalnız müxtəlif sosial-siyasi faktorlarla deyil, eyni zamanda Çinin milli azadlıq məsələləri və iqtisadi geriliyin aradan qaldırılması problemləri ilə bağlıdır.

Bu dövrdə Çinə nüfuz edən qərb fəlsəfəsinin yeni istiqamətləri olan praqmatizm və pozitivizm o qədər də geniş sosial bazaya malik deyildi. Ölkənin inkişafı üçün ideoloji sahədə elə bir vəziyyət yaranmışdır ki, yeni nəzəri proqramların işlənib hazırlanmasına ehtiyac duyulurdu. Nə ənənəvi ideyalar, nə də Qərbdən gələn modernist görüşlər ayri-ayrılıqda tələblərə cavab verən deyildi. Həm ənənəvi təlimlərin, həm də Qərb fəlsəfi dəyərlərinin Çin üçün nə qədər əhəmiyyətli olub-olmaması ətrafında mübahisələr gedirdi. Ona görə də tədricən yerli ənənəvi təlimlərlə mütərəqqi xarici ideyaların sintezini nəzərdə tutan yeni istiqamətin yaranması üçün şərait yaranırdı [Степанянц, 1985, 121-126].

Bu dövrdə ziyalıların bəziləri arasında neokonservatizm, neorealizm adlanan ideyalar geniş yayılır. Digərləri isə kommunist partiyası tərəfindən qurulan rejimi dəstəkləyərək, islahatlar keçirməyin tərəfdarı kimi çıxış edirdilər. Çin Respublikasının atası hesab olunan Sun Yatsen konfusiçi monarxist kimi fəaliyyətə başlamış, sonra qərbçi-respublikaçı qismində, sonda isə yenidən yerli ənənələrə qayıdaraq konfusiçilik prinsipindən çıxış etmişdir [Замов, 2017, 70].

1911-ci il Sinxay inqilabından sonra Çin siyasi cəhətdən iflasa uğrayır. Bu öz təsirini mədəni sahədə də göstərir. Mütərəqqi fikirli ziyalılar Çinin xilas yolunu Qərb ilə yaxınlaşmaqda görürlər. Qərb təmayüllü mütəfəkkirlər Xu Şi, Lu Sin, Xe Lin dünya sivilizasiyasına qoşulmağı tələb edirdilər. Xu Şi Şərq və Qərb mədəniyyətlərinin bir-birinə zidd olması fikrini rədd edirdi. Xe Lin də yerli ənənəvi təlim olan konfusiçiliyi Qərb fəlsəfəsi ilə birləşdirməyə çalışırdı.

Ümumiyyətlə, iyirminci əsr təlatümlü, milli özünəqayıdış və şərq xalqlarının “oyanış” dövrü kimi səciyyələnir. Buna baxmayaraq, həmin dövrdə Çində yerli ənənəçi mühafizəkar ziyalılarla yanaşı, qərb dünyagörüşünə meyil edən qabaqcıl zəka sahibləri çətin iqtisadi-siyasi və sosial şəraitin yaxşılaşdırılması məqsədi ilə yeni yollar axtarırdılar. Çinin qərb təmayüllü mütəfəkkirləri dünya sivilizasiyasına qoşulmağı tələb edir və ölkənin xilasını bu yanaşmada görürdülər.

Qədim dövrlərdə meydana gəlmiş yerli təlimlər öz nüfuzunu saxlayaraq, iyirminci yüzillikdə də çin xalqının mənəvi həyatında müstəsna rol oynamışdır. Çin həyat tərzinin formalaşmasında konfusiçiliyin xüsusi yeri vardır. İnsan və onun mövcudluq problemi ilə məşğul olan ənənəvi konfusiçilik təlimi Çin dünyagörüşünün əsasını təşkil edən nəzəri mənbədir. Çində ənənəvi görüşlərin əsasında insan problemi dayanırdı. Konfusiçilik 2500 illik uzun bir dövrü əhatə etsə də, çin mənəvi ideologiyası onunla məhdudlaşmır. İctimai fikir sahəsində ənənəvi yerli təlim daosizm və Hindistandan daxil olmuş buddizm də əhəmiyyətli yer tutur. Bu təlimlər Çin fəlsəfi fikrinin inkişafında mühüm rol oynamışdır.

## 2.Çin fəlsəfi irsinə əsas yanaşmalar

Ən yeni dövrdə iqtisadi, sosial-siyasi və mədəni sahələrin, cəmiyyətin və onun inkişafı yollarının müəyyən edilməsi işində Çində fəlsəfi fikir özünü təsdiqləyə bilmişdir. Bu sahədə filosof-mütəfəkkirlər iki cəbhəyə ayrılırlar: mühafizəkarlar (yerli-milli dəyərlərə sadiq qalaraq, onları qoruyub inkişaf etdirməyə çalışanlar) və qərb ideyalarını mənimsəyərək onu “milliləşdirməyə” səy göstərənlər.

Bu dövrdə Qərbdən gələn praqmatizm, pozitivizm, marksizm kimi təlimlər ya olduğu kimi öz gücünü saxlamalı, ya da kənarda qalıb təsirini itirməli idi. Marksist ideologiyaya marağın daha güclü olması rus dilindən tərcümə edilmiş marksizm fəlsəfəsinin çin ziyalılarının dünyagörüşünə ciddi təsir etməsindən ibarət idi.

Pekin Universitetinin rektoru, Sinxay inqilabının və “4 may hərəkatı”nın liderlərindən olan Çen Dusyu Çin Kommunist Partiyasının əsasını qoymuş və Mərkəzi Komitənin birinci katibi olmuşdur. Mao Szedunla partiyadaxili mübarizə nəticəsində 1927-ci ildə partiyadan azad edilmişdir.

Dövrünün görkəmli mütəfəkkiri olmuş Mao Szedun Çində marksist ideologiyanın əsasını qoymuşdur. Marksizm meyilli istiqamət daha çox maoizm təlimi adı ilə məşhurdur. Bu təlimə, eyni zamanda, çin sayağı marksizm də deyirlər.

Digər cəbhədə vuruşan alim-filosoflar isə milli dəyərlərin qorunub inkişaf edirilməsinin tərəfdarı kimi çıxış edirdilər. Bu baxımdan çin fəlsəfi irsinə münasibətdə üç yanaşma formalaşır:

1. ənənəvi;
2. tənqidi;
3. Çin və Qərb mədəniyyətinin, o cümlədən fəlsəfəsininin uyğunlaşdırılması.

XX əsr Çin fəlsəfi fikrinin inkişafında Xu Şinin (1891 - 1962), Fen Yu Lanın (1895 - 1964), Lyan Şu Minin və başqalarının xidmətləri xüsusilə seçilir.

Qərb təmayüllü Xu Şi Avropa elminə üstünlük verir və Çinin inikişafı yolunu Qərb dəyərlərindən bəhrələnməkdə görürdü.

Xu Şinin əksinə olaraq Fen Yu Lan qədim ənənələrə daha çox üstünlük verir, xüsusən də yenikonfusiçilik dünyagörüşünü müasir dövrə uyğunlaşdırmağa çalışırdı. Fen Yu Lan Şərq və Qərb fəlsəfi dünyagörüşlərinin sintezindən çıxış etməklə bir sıra maraqlı mülahizələr irəli sürmüşdü. Onun dünyagörüşündə ən maraqlı məqamlardan biri Qərbin məntiqi ilə Şərqin intuisiyasını birləşdirməklə vahid bir dünyagörüşü formalaşdırmağın mümkünlüyünü qəbul etməsidir. Onun bu ideyasını Xe Lin və Lyan Şu Min təsdiqləsələr də, ümumi birliyin daha çox hansı mədəniyyət tipindən, dünyagörüşündən istifadə olunması, bu sintezin yaradılmasında hansı dəyərlərin yetərli olması məsələsinə həmin filosofların yanaşması fərqli idi [Буров, 1980, 41].

Xe Lin Şərq – Qərb sintezində Şərq dəyərlərindən daha çox konfusiçiliyə üstünlük verirdi. Lyan Şu Min isə konfusiçiliyə buddizm ehkamlarını da əlavə edirdi. O, qeyd edirdi ki, Çində fəlsəfi fikrin inkişafına böyük təsir göstərən hind fəlsəfəsinin ən zəngin təlimi olan buddizm vahid dünya baxışının formalaşmasına güclü təsir göstərə bilər [Степанянц, 1985, 126-128].

Müasir Çin fəlsəfəsinin səciyyəvi xüsusiyyətləri içərisində maraqlı məqamlardan biri də iqtisadi həyata fəlsəfənin təsirini gücləndirməkdən ibarətdir. Burada fəlsəfə özünü daha çox siyasi səpkilərlə göstərir.

Bir tərəfdən fəlsəfə siyasi motivlərlə çin iqtisadi imkanlarını gücləndirirdisə, digər tərəfdən də siyasət özü yeni çin fəlsəfi şüurunun inkişafına təkan vermiş olurdu.

XX əsr çin fəlsəfəsi siyasi baxışlarla son dərəcə sıx bağlı olmuşdur. Əslində, siyasi hakimiyyət, daha doğrusu Çin Xalq Respublikasının siyasi rejimi filosofları siyasi həyata cəlb etməklə onları Çinin ictimai – siyasi şüurunun inkişafında aparıcı qüvvələrinə çevirmişdi. Lakin bu siyasi rejimdə mövcud olan ictimai vəziyyət, şərait Sovet quruluşunda hökm sürən quruluşdan fərqlənirdi. Ona görə də hər iki siyasi rejim arasında qarşıdurmalar, siyasi – fəlsəfi baxışlara etirazlar mövcud olmuş və sovet quruluşunun iflasına qədər kəskin anlaşılmazlıqlar hökm sürmüşdür. Onları daha çox birləşdirən ideya isə sosial ədalət prinsipi və orta təbəqənin formalaşdırılması olmuşdur.

Burjua və feodal baxışları mövqeyində duran filosofların ideoloji mövqedən çıxış edən fikirlərini üç əsas qrupa ayırmaq olar:

– Birinci qrupa aid olan filosoflar, əsasən, yeni xarici fəlsəfi təlimlərin, ən əsası praqmatizm və pozitivizm ardıcılları;

- Qərb fəlsəfəsi ilə Çin ənənəvi ideologiyasının - konfusiçiliyin sintezi təbliğinə çalışanlar;
- Ənənəvi Çin mədəniyyətinin qorunub saxlanması və inkişafı naminə səy göstərərək, çin fəlsəfi ideyalarının qərb təlimlərinin təsiri altında formalaşmasını təkzib edənlər [Буров, 1980, 40].

Bu mütəfəkkirlər arasında şöhrət qazanmış Xu Şi (1891- 1962), Fen Yu Lan (1895 - 1964), Xe Lin , Lyan Şu Min (1893 - ....) və digərləri olmuşdur [Гордон, 2017, 8-10].

Bu dövrdə Çində geniş yayılmış əsas istiqamətlər bunlardır:

1) Marksizm təmayüllü istiqamət;
2) Praqmatizm meyilli baxışlar;
3) Pozitivizm;
4) Millətçilik əhval-ruhiyyəsi.

**3.Xu Şinin “qərbləşmək” siyasəti**

Xu Şi iyirminci yüzilliyin görkəmli çin mütəfəkkiri və filosofu olmuşdur.

Ənənəvi mənəvi mədəniyyəti, əsasən də konfusiçilik normalarını – köhnə cəmiyyətin siyasi institutlarını təkzib edən Xu Şi 1891-ci ildə Çuanşa vilayətində mülkədar ailəsində dünyaya gəlmiş, 1962-ci ildə vəfat etmişdir. ABŞ-də təhsil almış Xu Şi oranı özünün birinci vətəni hesab etmiş və qərbçi kimi yetişmişdir. O, Çini Amerika nümunəsi kimi görmək istəyirdi [Замов, 2017, 84].

Xu Şi əsas diqqətini fəlsəfə tarixinin metodoloji problemlərinə yönəltmişdi. O özünün tarixi-fəlsəfi fikirlərini 1919-cu ildə Şanxayda dərc olunmuş “Çin fəlsəfə tarixinin xülasəsi” adlı əsərində izah etməyə çalışmışdı. Əsərin giriş hissəsində Xu Şi fəlsəfə tarixinin məqsədini “dəyişikliyin aydınlaşdırılması”, “dəyişikliklərin və fərqlərin məqsədinin axtarışı” adlandırırdı. Filosof yazırdı: “fəlsəfə tarixinin birinci məsələsi təfəkkürün təkamülünün səbəbini göstərməkdən ibarətdir. Məsələn, qədim dövr çin filosofları - konfusiçilik təliminin ardıcılları olan Men-szı və Syun-szının təlimləri bir-birindən və Konfusinin təlimindən fərqlənir. Eləcə də, orta əsr konfusiçiləri Çen Xao və Çin İ qardaşları və Çju Sinin ideyaları Konfusinin və Men-szının fəlsəfəsindən fərqlənir”. İlk dəfə olaraq Xu Şi qərb elmində qəbul olunmuş bu və ya digər tarixi əhəmiyyətli ideoloji təzahürləri və prosesləri Çinə təqdim etmişdi. Filosof “iki tip fəlsəfə tarixi”ni müəyyən edir: “ümumi tarix” (məsələn, Çin fəlsəfə tarixi və ya qərb fəlsəfə tarixi) və “xüsusi tarix”.

“Xüsusi tarix”in özünü də bir neçə istiqamətə ayırır: a) müəyyən dövrü öyrənən; b) ayrı-ayrı istiqamətləri və məktəbləri öyrənən; c) konkret olaraq hər hansı bir mütəfəkkirin fəlsəfi görüşlərini tədqiq edən; d) məntiqin tarixi.

Mütəfəkkir qeyd edirdi ki, fəlsəfə tarixinin məqsədi bu təkamülün səbəbini tapmaq və izah etməkdir.

Xu Şi fəlsəfə tarixinin metodunu şərh edərkən tədqiqat prosesinin bəzi aspektlərini göstərir. Məsələn, fəlsəfə tarixinin materialları, materialların yoxlanılması, materialların yoxlanılmasının yolları və materialların təşkili üsulu.

Filosof hesab edirdi ki, Çin fəlsəfə tarixini öyrənərkən Avropa fəlsəfə tarixinə söykənmək lazımdir. Belə ki, o, ilk çin alimi kimi komparativist təhlil aparmağa müvəffəq olmuşdu. Xu Şi yeni dövr qərb fəlsəfəsinin böyük mütəfəkkirləri Rene Dekartın “Metod haqqında mühakimə” və Frensis Bekonun “Yeni Orqanon” əsərlərini çin fəlsəfəsinin inkişafı üçün əsas vasitə hesab edirdi.

Yeni konfusiçilik məktəblərində o, uyğun mənbə axtarırdı ki, onu qərb fəlsəfəsi və elmi ilə uzlaşdıra bilsin. Bununla da Xu Şi düşünürdü ki, komparativist təhlil vasitəsilə qərb fəlsəfəsinin tənqidi yanaşmasından yaxa qurtarmaq olar [Киселев, 2014, 135-143].

Xu Şi Amerikada praqmatizmin böyük nümayəndəsi Con Düinin tələbəsi və ardıcılı olmuşdur.

Xu Şinin yaradıcılığında praqmatizm və pozitivizm təbliğ olunur, ənənəvi dəyərlər kəskin tənqid atəşinə tutulur, materializm və idealizm Şərq və Qərb dünyagörüşləri prizmasından təhlil edilirdi. Xu Şinin fəlsəfəsi öz dövrünün siyasi baxışlarının təsiri altında formalaşmış, sosial inkişaf məsələsində darvinizm təlimindən çıxış etmişdir.

Xu Şinin ziyalı dairəsinə mənsub olan tələbələrə böyük təsiri olmuşdur. O, yerli dəyərlərin, konfusiçilik normalarının və görüşlərinin kəskin tənqidçisi və amerikan praqmatizminin, qərb həyat tərzinin təbliğatçısı idi. Əsasən, o, Qərbin mədəni, elmi və texniki nailiyyətlərinə əsaslanmağa çağırırdı.

Çinin elmi və texniki geriliyini qəbul edən burjua ideoloqlarından fərqli olaraq Xu Şi cəmiyyətin köhnə adət - ənənələrini rədd edirdi. O, cəsarətlə qeyd edirdi ki, "mən Şərqin – Çinin sivilizasiyasını məzəmmət edirəm və müasir Qərb sivilizasiyasını mədh edirəm. İnsanlar tez – tez deyirlər ki, Şərq sivilizasiyası – mənəvi-ruhani sivilizasiyadır, Qərb sivilizasiyası isə maddi və ya materialist sivilizasiyadır. Bu düz deyil. Qədim zamanlarda Şərq adamları da maddi mədəniyyət nümunələri yaratmış və sonrakı dövrlərdə onların varisləri "tənbəllik" edərək öz ağıl və əllərini işlətməmiş və "tənbəllərin fəlsəfəsi"ni ortaya qoyaraq, təbiətin dəyişdirilməsində iştirak etməmişlər". Hal – hazırda bəzi təfəkkürü az olan insanlar sübut etməyə çalışırlar ki, qədim çin mədəniyyəti hər hansı bir ölkənin mədəniyyətindən üstündür. Onlar insanları Şərqə tərəf getməyə sövq edir, Qərb həyatından yayındırırlar [Буров, 1980, 41].

Tənqidçi Xu Şi Çinin ictimai həyatında liberal – islahatçı mövqeyində dayanmış, onun ideyaları yüz illər boyu çin zehniyyatına hopmuş feodal mədəni standartların və mənəvi dəyərlərin dəyişdirilməsi üçün mühüm əhəmiyyət kəsb etmişdir. O, tamamilə "qərbləşmək" mövqeyində dayanmışdır ki, bu da ölkənin siyasi və iqtisadi həyatında böyük rol oynayan imperialist qüvvələrin işinə mane olurdu. Həmçinin çin xalqının vətənpərvərlik və milli şüurunun tərbiyəsi işinə əngəl törədirdi.

O, Şərq və Qərb sivilizasiyasının, maddi və mənəvi sivilizasiyaların zidd olması fikrinə qarşı çıxır və göstərirdi ki, xüsusi olaraq maddi və mənəvi sivilizasiyalar mövcud deyil. Qərblə Şərq arasında fərq ondan ibarətdir ki, Qərb sivilizasiyası inkişafda, Şərq sivilizasiyası isə geriləməkdədir. Xu Şiyə görə, Şərqin geri qalma səbəbi şərqlilərin həyatlarından məmnun olmalarıdır. Qərbin isə müasir sivilizasiyasının ən böyük xüsusiyyəti həyatın onları qane etməməsidir.

Həyatlarından məmnun olan şərq xalqları öz primitiv həyat tərzlərindən razıdırlar və ona görə də maddi rifaha can atmırlar. Nəticədə maddi aləm onları nəzarətdə saxlayır və onlar bu vəziyyətdən kənara çıxa bilmirlər. Bu, tənbəl, geridə qalmış xalqın sivilizasiyasıdır, bu, materialist sivilizasiyanın oxşarıdır.

Qərblilər isə tam başqadır. Onlar dünya elmlərinin nailiyyətlərinə əsaslanır, ağıl və insan təfəkküründən tam şəkildə istifadə edir, bəşəriyyətin nicatına çalışırlar [Буров, 1980, 42].

O, göstərirdi ki, "materialist" həyat tərzi "ağıl və ruhun tənbəlliyi"nə gətirib çıxarır. "Rasionalist" həyat tərzi isə, əksinə olaraq, insanın yaradıcı xüsusiyyətlərini azad edir və elmin inkişafını stimullaşdırır.

Xu Şinin ictimai – tarixi proses nəzəriyyəsində sinfi mübarizəyə yer verilmir və göstərilir ki, cəmiyyətdəki mübarizə insanlarla təbiət arasındakı mübarizədir. Bu da sonda insanlarla təbiət arasında qarşıdurmaya zəmin yaradır. Xu Şiyə görə ictimai inkişaf mənəvi və ya intellektual inkişaf olmalıdır ki, insan şəxsiyyətinin təkmilləşməsinə xidmət etmiş olsun. Çin cəmiyyətində insan ənənəvi normaların və görüşlərin əsarəti altındadır. Ona görə də Xu Şi şəxsiyyətin azadlıq şüarını təbliğ edir, onun universal humanizminin və ruhunun mütləq azadlığını şərh edirdi.

Xu Şinin "şəxsiyyətin azadlıq şüarı"nın məzmunu iki cür səciyyələndirilir:

1. Şəxsiyyətə təsir edən feodal cəmiyyətinin mənəvi dəyərlərindən, konfusiçilik mədəni standartlarından, mənəvi qadağalardan əl çəkmək;
2. cəmiyyətin şüurlu şəkildə inqilablar yolu ilə dəyişdirilməsi üçün şəxsiyyətin formalaşdırılması, insan təbiətinin və yaradıcılıq xüsusiyyətlərinin inkişaf etdirilməsi [Буров, 1980, 44].

Xu Şiyə görə Çin cəmiyyətini gerilikdən yalnız mənəvi, intellektual inkişaf xilas edə bilər. O, hesab edirdi ki, Çinin əsas “düşmənləri” yoxsulluq, xəstəlik, acgözlük, nizamsızlıq, cəhalətdir. Bu beş əsas düşmənlər arasında kapitalizm mövcud ola bilməz. Bunlar arasında burjuaziya da yoxdur. Çünki bizdə bir qrup varlılar vardır, onlar da burjuaziya ola bilməz. Burada imperializm də yoxdur. Çünki o da dövləti sıxışdıra bilmir ki, bu beş əsas düşməni məhv etsin. O, feodalizmi, kapitalizmi, imperializmi deyil, xalqı günahlandırırdı və deyirdi ki, xalq öz taleyindən razıdır.

Onun “Çinin beş düşməni” haqqında mühakiməsində Qərbin elmi - texniki və mədəni - ideoloji köməyindən istifadə edərək kapitalizm yolunda inkişaf etmək cəhdi gizlənirdi [Замов, 2017, 84].

Xu Şinin dünyagörüşü iki fəlsəfi konsepsiyada – Qekslinin aqnostisizmi və C.Düinin praqmatizmi əsasında formalaşmışdır. O, yazırdı: “Qeksli mənə şübhəni, çoxşaxəli sübutu olmayanlara inanmamağı öyrətdi. C.Düi isə mənə müasir problemlər haqqında düşünməyi, bütün təlimləri nəzərdən keçirməyi və şüurun nəticəsi üzərində fikirləşməyi təbliğ etdi”. Xu Şi konfusiçilik və marksizmin tənqidi üçün özünün həqiqət problemlərinin praqmatik şərhindən istifadə etdi [Буров, 1980, 46-47].

Xu Şinin görüşləri çin tarixində tənqidi xarakter daşıyır. O, göstərirdi ki, Çin dövləti öz azadlığının müdafiəsində dura bilməmişdir, ona görə də bu işdə Amerikanın siyasi sistemindən istifadə edilməlidir. Bütün elmi nailiyyətlər başqa xalqlardan əxz edilmişdir. Çin tarixi heç bir özəl xüsusiyyəti ilə seçilmir.

Ümumiyyətlə, Xu Şinin dünyagörüşü M.Veberin və B. Kroçenin tarixi relyativizminə (relyativizm-insan idrakının nisbiliyi, şərtiliyi və subyektivliyi haqqında idealist təlim) uyğun idi. Xu Şi qeyd edirdi ki, tarixi prosesdə qanunauyğunluq yoxdur, bu proses təsadüflərlə doludur. Əbədi və daimi həqiqət mövcud deyil. Cəmiyyətdə baş verən müsbət dəyişikliklərin nəticəsi təkamül prosesidir [Замов, 2017, 85].

**4.Maoizm**

Çində 1949-cu ilə qədər marksist fəlsəfə Qomindan (1949- cu ilə qədər Çində hakim əksinqilabçı partiya) rejiminə və yapon imperializminə qarşı mübarizə şəraitində inkişaf edirdi. Bu illərdə peşəkar filosof-marksistlərin sayı çox deyildi (Ay Sıtsi, Du Qosyan, Li Da, Lyuy Çjenyuy, U Lipin, Fen Din, Xu Şen, Şen Çjiyuan, Yan Yunqo və başqaları ). Onlar marksizm-leninizm klassiklərinin fəlsəfi əsərləri ilə az tanış idilər. Həmin mütəfəkkirlər marksist fəlsəfəni sovet kitabları, dərslikləri, jurnalları vasitəsilə öyrənirdilər. 1940-cı illərin ortalarında Mao Szedunun ideyalarının təbliği güclənsə də, ondan o qədər də istifadə etmirdilər. Bütün bunlar Çində marksist fəlsəfənin səviyyəsinə öz təsirini göstərir. Belə ki, həmin dövrdə fəlsəfənin elmi biliklər sistemində yeri, dialektik metodun mahiyyəti, tarixin materialist anlamı, nəzəri-idraki prosesin mərhələlərinə dair fəlsəfi-marksist əsərlər demək olar ki, yox dərəcəsində idi. Çin Kommunist Partiyasının görkəmli nümayəndəsi Ay Sıtsinin 1946-cı ildə çapdan çıxmış “Fəlsəfə üzrə seçilmişlər” kitabı dialektik materializmə həsr edilmişdir. Əsərdə dialektik materializmin predmeti, qanunları və kateqoriyaları müfəssəl şəkildə şərh edilir. Fikirlərində Ay Sıtsi çin tarixi-fəlsəfi mənbələrinə və antiyapon müharibəsinin təcrübəsinə istinad edir. O, hesab edirdi ki, çin fəlsəfəsində dialektik materializm ünsürləri mövcuddur. Bu özünü Lao-szının, Mo-szının təlimində də göstərir [Буров, 1980, 71-73].

Çində Kommunist Partiyasının qurucusu hesab edilən Çen Dusyu (1879–1942) Mərkəzi Komitənin birinci katibi olmuş, lakin siyasi karyerası 1927-ci il çevrilişindən sonra uğursuz sonluqla başa çatmışdı. Ömrünün sonunda marksizmdən üz döndərmişdi. Mao Szedundan fərqli olaraq Çen Dusyu kəndliləri inqilabi hərəkatın heqemonu hesab etmirdi. Onun fikrincə, Çində mülkədar zülmü güclü olmadığından kəndliləri mübarizəyə qaldırmaq çətindir. Lakin əhalinin 70%-ni təşkil edən kəndlilərin gücündən istifadə etmədən inqilabi zəfər qazanmaq mümkün deyil [Замов, 2017, 77-78].

Mao Szedunun (1893-1976) dünyagörüşü marksizmin sovet interpretasiyası ilə Şan Yanın ənənəvi çin kəndli mentallığına əsaslanan ideyasının sintezidir. Mao kainatın əsas qanunu kimi qeyri-bərabər inkişaf qanununu qəbul edirdi [Замов, 2017, 85].

Marksizm təlimi Çində Mao Szedunun adı ilə bağlıdır. O, 1893- cü ildə Xuan əyalətinin Şaoşan kəndində dünyaya gəlmişdir. Həmin illərdə Sin sülaləsi süquta uğramışdı. Çin həm qərb imperialistləri tərəfindən, həm də yerli militaristlər (hərbçilər) tərəfindən hissələrə parçalanmışdı. Ölkəni yenidən dirçəltmək məsələsi ziyalı təbəqəni düşünməyə vadar edirdi. Belə şəraitdə müxtəlif istiqamətli islahatçı baxışlar meydana gəlir. İyirminci yüzilliyin əvvəllərində Çində yeni təmayüllü istiqamət – marksizm yayılmağa başlayır.

Mao Szedun yaxşı təhsil almış, erkən yaşlarından qərb ədəbiyyatını mütaliə etmiş, rus dilindən tərcümə edilmiş marksist ədəbiyyatla tanış olmuş, qərb fəlsəfi təfəkkürünü mənimsəmişdi. 40 ilə yaxın Çin Xalq Pespublikasının Kommunist Partiyasının rəhbəri olmuş Mao Szedunun ideyaları həmin dövrün çin ideologiyasına böyük təsir etmişdi.

Xalq inqilabının qələbəsindən sonra çin fəlsəfəsində köklü dəyişikliklər baş verir: burjua və feodal baxışları marksist dünyagörüşü ilə əvəzlənir. Maoçuluq təliminin ən böyük nümayəndəsi Mao Szedunun nəzəriyyəsi çin filosoflarının fəaliyyətinə təsir göstərir [Буров, 1980, 85].

Mao Szedun Kommunist Partiyasının üzvü olduğu iyirminci yüzilliyin 20-30-cu illərində qeyri-marksist görüşlərdən azad ola bilməmişdir. O, 1930-cu illərin ikinci yarısından etibarən sovet fəlsəfəsi ilə tanış olur və ozünün əsərlərini yazır: 1937-ci ildə yazdığı "Təcrübə haqqında" və "Ziddiyyət haqqında" əsərləri, "Uzun sürən müharibə haqqında" (1938), "Yeni demokratiya haqqında" (1940), "Ədəbiyyat və incəsənət haqqında" (1942), "Xalq içərisindəki ziddiyyətlərin düzgün həll edilməsinə dair məsələ haqqında" (1957) və s.

Böyük siyasətçi olan Mao Szedun marksizmin klassik formasını saxlamaqla yanaşı, ona ölkənin mədəni-sosial şəraitinə uyğun yeni ruh qatmışdı. "Xalq içərisindəki ziddiyyətlərin düzgün həll edilməsinə dair məsələ haqqında" və "İnsanda səhih fikirlər hardandır?" (1963) əsərlərində Mao Szedunun fəlsəfi fikirləri yer almışdı [Буров, 1980, 110].

**5.Nəticə**

İyirmini yüzillikdə müxtəlif ideya cərəyanlarının – neokonservatizmin, neorealizmin yaranması Çinin mənəvi həyatında bir çox dəyişikliklərin meydana gəlməsinə səbəb olmuşdu. Bu ideya müəlliflərinin bəziləri çox hallarda islahatlar keçirməyin tərəfdarı kimi çıxış etsələr də, sonda yerli ənənələrə qayıdaraq, konfusiçilik mövqeyindən çıxış etmişlər. Xu Şi, Lu Sin, Xe Lin hesab edirdilər ki, Qərb mənəviyyatına yaxınlaşmadan, ondan istifadə etmədən çin təfəkkür tərzini dəyişmək mümkünsüzdür.

İki min ildən artıq milli-ənənəvi təlim olan konfusiçilik çinlilərin ruhuna hopmuş və ondan sağına bilməmişlər. Eyni zamanda daosizm və sonralar Mərkəzi Asiya vasitəsilə yayılmış buddizm çinlilərin fundamental ənənəvi təfəkkürünün formalaşmasında və inkişafında mühüm əhəmiyyətə malikdir. Keçən əsrin əvvəlləri şərq xalqlarının, o cümlədən çinlilərin baxış bucağı dəyişərək mühafizəkar ideoloqlarla bərabər, Qərbə meyl edən açıq təfəkkürlü zəka sahibləri Çinin iqtisadi, siyasi-ideoloji və mədəni cəhətdən tərəqqisi üçün əsas vasitə kimi qərb mədəni dəyərlərindən istifadə etməkdə görürdülər.

Belə mütəfəkkirlərdən biri "qərbçi" Xu Şi olmuşdu. O, çinin intibahı üçün əsas meyar kimi konfusiçilik ruhu ilə uyğun olacaq qərb dəyərlərinə müraciət etməyi vacib saymışdır. Xu Şi yaradıcılığında şərq-qərb komparativist təhlilinə üstünlük vermiş və yeni dövrdə fəaliyyət göstərmiş ingilis və fransız filosoflarının əsərlərinə müraciət etmişdir. O, təkraralanan ənənəvi şüurdan imtina edərək, yeni təfəkkür üsulunun yaranmasına çalışırdı.

Keçən əsrin 40-cı illərindən etibarən Çinin ictimai-siyasi və ideoloji həyatında kəskin dönüş yaradan maoizm marksizmin klassik forması ilə çıxış etmiş və Mao Szedun cəmiyyətdə və çin xalqı içərisində ziddiyyətlərin düzgün həlli yollarını axtarmağa çalışmışdır.

Belə ki, ən yeni dövrün mütəfəkkirləri Çinin gələcək inkişafını və tərəqqisini Qərb mədəniyyətinin təsirindən kənarda görmürdülər. Hələ bir əsr öncə şərq - qərb mənəviyyatının birgə inkişafı fikrinə əsaslanan yanaşmalar bu gün Şərq - Qərb qarşıdurmasına mane olar və bəşəriyyəti soyuq müharibədən qoruya bilər.

Yekun olaraq demək istəyirik ki, mövzuya müraciət etməkdə əsas məqsəd qərb fəlsəfi dəyərlərinin Çin üçün əhəmiyyətli olub-olmaması məsələsini tədqiq etməkdən ibarətdir.

## 6.REFERENCES


1. Borokh, L. N. (2001). *Confucianism and European thought at the turn of the 19th–20th centuries*. Moscow: Vostochnaya literatura, 287 p. (in Russian)
2. Burov, V. G. (1980). *Modern Chinese philosophy*. Moscow: Nauka, 312 p. (in Russian)
3. Gordon, A. V. (2017). *China in world history and international politics: Modernism–Traditionalism–Globalism*. Moscow: RAN INION, 84 p. (in Russian)
4. Deng, S. (1988). *Fundamental issues of modern China*. Moscow: Politizdat, 259 p. (in Russian)
5. Zamov, E. A. (2017). *Social thought of the countries of the East: Textbook*. Ekaterinburg: Ural Federal University, 150 p. (in Russian)
6. Titarenko, M. L. (Ed.). (1989). *History of Chinese philosophy*. Moscow: Progress, 552 p. (in Russian)
7. Kiselev, V. A. (2014). Hu Shi on the history of philosophy as a philosophical discipline. *Vestnik Rossiiskogo universiteta druzhby narodov. Seriya: Filosofiya*, (3), 135–143. (in Russian)
8. Khoros, V. G. (Ed.). (2014). *Chinese civilization in the globalizing world: Proceedings of the conference* (Vol. 1 of 2 vols.). Moscow: IMEMO RAN, 203 p. (in Russian)
9. Kobzev, A. I. (2002). *Philosophy of Chinese neo-Confucianism*. Moscow: Publishing firm "Eastern Literature" of the Russian Academy of Sciences, 606 p. (in Russian)
10. Delyusin, L. P. (Ed.). (1982). *Confucianism in China: Problems of theory and practice*. Moscow: Nauka, 262 p. (in Russian)
11. Torchinov, E. A., & Korneev, M. Ya. (2001). *Heidegger and Eastern philosophy: The search for complementarity of cultures*. Saint Petersburg: St. Petersburg Philosophical Society, 324 p. (in Russian)
12. Stepanyants, M. T. (Ed.). (1985). *Philosophy and religion in the Foreign East in the 20th century*. Moscow: Nauka, 272 p. (in Russian)
13. Chenyan, L. (2026). Mao Zedong. *Abirus*. Retrieved February 11, 2026, from https://www.abirus.ru/content/564/623/625/647/836/11124.html (in Russian)


## ƏDƏBİYYAT


1. Борох, Л. Н. (2001). *Конфуцианство и европейская мысль на рубеже XIX–XX веков*. Москва: Восточная литература, 287 с.
2. Буров, В. Г. (1980). *Современная китайская философия*. Москва: Наука, 312 с.

3. Гордон, А. В. (2017). *Китай в мировой истории и международной политике: Модернизм-Традиционализм-Глобализм*. Москва: РАН. ИНИОН, 84 с.
4. Дэн, С. (1988). *Основные вопросы современного Китая*. Москва: Политиздат, 259 с.
5. Замов, Э. А. (2017). *Общественная мысль стран Востока: учеб. пособие*. Екатеринбург: Уральский федеральный университет, 150 с.
6. Титаренко, М. Л. (Ред.). (1989). *История китайской философии*. Москва: Прогресс, 552 с.
7. Киселев, В. А. (2014). Ху Ши об истории философии как философской дисциплине. *Вестник Российского университета дружбы народов. Серия: Философия*, № 3, с. 135–143.
8. Хорос, В. Г. (Отв. ред.). (2014). *Китайская цивилизация в глобализирующемся мире. По материалам конференции* (В 2 т., Т. 1). Москва: ИМЭМО РАН, 203 с.
9. Кобзев, А. И. (2002). *Философия китайского неоконфуцианства*. Москва: Издательская фирма «Восточная литература» РАН, 606 с.
10. Делюсин, Л. П. (Ред.). (1982). *Конфуцианство в Китае: проблемы теории и практики*. Москва: Наука, 262 с.
11. Торчинов, Е. А. & Корнеев, М. Я. (2001). *Хайдеггер и восточная философия: поиски взаимодополнительности культур*. Санкт-Петербург: Санкт-Петербургское философское общество, 324 с.
12. Степанянц, М. Т. (Ред.). (1985). *Философия и религия на Зарубежном Востоке XX век*. Москва: Наука, 272 с.
13. Чэньян, Л. (2026). Мао Цзэдун. *Abirus*. Retrieved 11.02.2026 from https://www.abirus.ru/content/564/623/625/647/836/11124.html